

Əbülfət MƏDƏTOĞLU

# FÜZULİ OLMASAYDI...

”Ədalət”in baş redaktoru məni iş otağına dəvət edib bir kitab verdi. Elə otaqdaca kitabın adını oxudum və...

Bu kitabdakı esseləri mətbuatda,xüsusilə ”Ədəbiyyat” qəzetində oxumuşdum, xəbərim var idi. Amma istənilən əsəri hissə-hissə deyil, bütövlükdə oxuyanda hadisələrin axarına uyğun olaraq əvvəldən axıra kimi müəllifin və elə o əsərin ruhunun da yol-yoldaşına çevrilirsən. Bax, bu mənada mən Füzuli ilə əsrlərəbərabər bir yolun başlanğıcından bu gününə qədər çox ləngərli, çox tutumlu, hətta mən deyərdim bəzən də dizlərimi titrədib, ayağımı büdrədən bir yolçuluq edəsi oldum. Bu yol- yoldaşlığı ,tam səmimi deyirəm, mənə, düşüncələrimə, illah da ki,yurdsuzluq yaşamış ürəyimə baha başa gəldi. Amma ağrılara, fikir yükünün basqılarına baxmayaraq, oxudum Füzulini. Özü də öncə adi oxucu kimi, sonra bir addım adilikdən çıxıb dərk etməyə cəhd göstərən, sözə könül verən kimi. Oxudum Kamal Abdullanın Füzulisini! Oxuduqca da Füzulini bu qədər az tanıdığıma, Füzulidən bu qədər az bildiyimə üzüldüm. Çünki...

Düşünürəm ki, müdriklərin dediyi ”bilməmək eyib deyil, öyrənməmək eyibdi” kəlamı indi mənim əlimdən tutacaq. Və bu kəlam məni həm də dərindən bilmədiyim Füzuli dünyasına doğru yönəldəcək.Baxıb görəcəm ki, öndə bir ADAM gedir. Həmin şəxs Füzulini söz-söz, misra-misravərəqləyir. Vərəqlər o qədər səssiz, o qədər ustalıqla çevrilir ki, onu oxumaq,onu izləmək mümkündür. Hələ üstəlik, o çevrilən vərəqlərdə Füzulinin bütövlüyü işığa bürünür. O işıq da Füzuli ruhuyla, cismiylə, sözüylə birlikdə görünür.Göründükcə də sanki ətə-qana dolur... dil açır... və başlayır danışmağa.Danışdıqca da özünü ifadə edir... özünü sərgiləyir... yaddaşa hopdurur... ruha sintez edir... canında Füzuli yenidən doğulur, dünyaya gəlir sənin- mənim üçün ...

Bəlkə də sizə qəribə gələcək.Hardasa məni qınayanlar da olacaq. Amma necə deyərlər, vecimə də deyil. Çünki mən ilk dəfə ”Deyildim mən sənə mail...” fəlsəfəsini Kamal Abdullanın yozumunda bütünlüklə həzm elədim. Anladımki, mənim, yəni Füzulinin ”sənə mail deyiləm” etirafı adi şeir misrası deyil, adi qəzəl misrası kimi yaddaşa yazılmır. Burda neçə qat dərinlik var... burda neçə qat əlçatmazlıq var... Və mail olmayanın yerlə göy arasında nəhayət ki, tapdığı bir nöqtə var.Ona görə də o, Füzuli fövqüylə, Füzuli hayqırtısıyla çox rahat şəkildə pıçıldayır. Siz o pıçıltıya fikir verin...

...Deyildim mən sənə mail...

Eşidə bildinizmi? Əgəreşitdinizsə, onda akademik Kamal Abdullayla, daha doğrusu, onun şərhiylə həmfikir olacaqsınız. Necə ki, mən bu pıçıltıdan doğulan, boy göstərən Füzulini bütöv halda gördüm, dinlədim. Həmin o işığın içində bir ağ yol da var idi. Orada hərkəsin getmək istədiyi, amma gedə bilmədiyi, hər kəsin olmaq istədiyi, amma ola bilmədiyi ilahi bir aşiqlik var. O aşiqlik akademik Kamal Abdullanın şərhindən sonra mənə Füzulini ruh kimi göstərdi. Hamıya nüfuz edə bilən, özü də hamıda zərrələri olan ruh kimi. Düşündüm və inandım ki, akademik Kamal Abdullanın Füzulini Allah bəndəsi - insan kimi deyil, yerlə göyün arasındakı ruh kimi görməsi ən böyük tapıntıdı. Özü də elə bir tapıntı ki, heç kəsin cismən gedib dönmədiyi, qayıtmadığı məkandan da Füzulinin ruhu bizə qayıdıb bizimlə ola bilir. Digər tərəfdən, bu ruh heç kimi usandırmır.

Hətta bir aşiq olaraq cəfadan da bezmir, yorulmur. Ona görə ki, o ruhun nəfəsi də, cismi də, yerişi, duruşu, nüfuz etmək qüdrəti də Sevgidi!

”Mənim Füzulim”in bir nüansı da mənim yaxamı buraxmır. O da akademik Kamal Abdullanın məni inandırdığı daha bir gerçəkdi. O gerçəyin adı Füzulinin Səyyah olmasıdır. Elə bir səyyah ki, hər yerə gedə bilir... hər məqamı dəyərləndirməyi bacarır... hər mənzərəni özünə və özünü də ona köçürməyi diqqətindən yayındırmır... Eyni zamanda, bu Səyyah dayanmır, yatmır, dincəlmir.Həyatın özünü də özündə görür. Ona ”tən eyləyən” qafili də, onun”əqlini zair” edəni də tanıyır. Bunların heç birinə isə iynə ucu boyda da olsun təpki gəlmir, acı münasibət göstərmir. Çünki o, Füzulidi! İnsan kimi, bəndə kimi çoxdan Yer üzündən köçmüş, amma şeyx kimi, ruh kimi, ŞAİR kimi bütün zamanları keçib gələn və keçib getməkdə də davam edən Füzuli!

Akademik Kamal Abdullanın”Mənim Füzulim” kitabındakı ”Deyildim mən sənə mail”essesini oxuyarkən içimdən belə birfikir gəlib keçdi. Hörmətli Kamal müəllim bu esseni yazarkən həkimlərin istifadə etdikləri maqqaşdan istifadə edib. Sözü, fikri bir-bir, yorulmadan, usanmadan seçib, sıralayıb. Necə ki, sovet dönəmində mətbəələrdə çap sexində hərfləri,durğu işarələrini bir-bir axtarırdılar, seçirdilər. Sonra sıraya düzüb söz,cümlə yaradırdılar. Bax, bu essenin dünyaya gəlişi də mənə o anları xatırlatdı.Çünki mən hər sözdə, hər bir vurğunun altında Füzuli işığını gördüm...

Bəli, bu mənim bir oxucu olaraqKamal Abdullanın ”Mənim Füzulim” kitabındakı ilk esse barəsində yaşantılarımdı. Və vurğulamaq istəyirəm ki, hər gün təkrar-təkrar oxuduğum bu esselərin digərləri barəsində də yaşantılarımı oxucularımla bölüşəcəm.

***

Oxuyub başa çıxdığım bir kitabdan ayrıla bilmirəm. Bu kitab barəsində ilk yazımı ötən həftə yazmışdım.Orada kitabın mahiyyətinə bacardığım kimi işıq salmağa çalışmışdım və vurğulamışdım ki, kitabdakı 6 bölümün hər biri barəsində ağlımdan keçən, ürəyimə hopan duyğuları sözə çevirməyə çalışacam. Elə arxada qalan həftənin, xüsusilə həyatıma ağır təsir biganəlik yükü altından çıxış yolu kimi ”Mənim Füzulim”ə üz tutdum...

Bu bölümün adı ”Tifl həm cövlan edər, amma ağacdan atı var...”

Misraya fikir verin. Onda akademik Kamal Abdullanın Füzuli qəsidəsindən götürdüyü bu misranın nəyə istinad nöqtəsi olduğunu yavaş-yavaş duymağa, anlamağa başlayacaqsınız. Ona görə yavaş-yavaş deyirəm ki, bu misranın tutumu, həcmi və bir də onun insanın duyğularına olan təsiri o qədər böyükdür ki, onu dərhal həzm etmək, dərhal özününküləşdirmək mümkün deyil. Bunun üçün mütləq Füzulinin bir zərrəsinə çevrilməlisən. Onda, hörmətli Kamal müəllimin dediyi kimi, öncə özünü xatırlayacaqsan, öz xatirələrinə baş vuracaqsan... Və bir də baxıb görəcəksənki, uşaqlığın düz orta göbəyində dayanmısan. Tozlu-torpaqlı yolda qarğı at çapırsan. Necə deyərlər, Araz aşığındandı, Kür də topuğundan, dünya da vecinə deyil. Ona görə ki, sən qarğı atı yəhərləyib çapırsan, dünyan pak, nurlu uşaq dünyası, sevincin bu qarğı atın gedib çata bilməyəcəyi zamanları ötüb keçib... Və sən bir xoşbəxt uşaqsan! Elə bu yerdə də Füzulini özünlə üzbəüz dayanmış görəcəksən. O da öz atının belindədi. Amma səndən bir zaman kəsiyi arxadadı. Çünki o, təkcə mindiyin qarğı atı deyil, həm də akademik KamalAbdullanın dediyi kimi, öz doğumunu, öz dünyaya gəlişini də xatırlayır. Burda mənim dilimin ucuna bir söz də gəlir. Demək istəyirəmki, hörmətli Kamal müəllimin məni köklədiyi duyğular qulağıma pıçıldayırki, Füzuli göbəyimin kəsildiyini də hiss edir.

Bax, elə sözün qatlarına varmaqda, onun nöqtə-vergülündən tutmuş səsdən hərfə, yazılışa köçən hər anına da burdan baxmaq lazımdı. Elə ki, baxmağı bacardın, onda Füzuliylə doğuşundan üzü bugünə qədər yol-yoldaşı olacaqsan. Və üstəlik, duyacaqsan ki, Füzuli səni özü il gətirdiyi kimi, sən tıncıxıb nəfəs dərəndə bir də gəldiyi yerə dönüb baş çəkə bilir.Çünki onun dünyası göyün o biri üzüylə yer arasındadır. O, getdiyi yerdə sözünün işığını paylayır və yenidən gəldiyi yerə qayıdır ki, ora da işıqsız qalmasın...

Esseni oxuduqca məndə belə bir haldan-hala düşmə məqamı yaranır. Elə bilirəm ki,oxuduqlarım məni bütünlüklə özümdən alıb harasa götürür. O götürüldüyüm yerin mənzərəsini də görürəm, mənə tanış gəlir, məni cəlb edir. Amma məni həm də qorxudur. Çünki o yerdə hər şey, hər kəs azaddır Füzulinin özü kimi. Ona görə də Kamal müəllimin bir oxucu kimi mənə aşıladığı Füzuli sözünün alt qatında mən o azadlığı yaşamağa, onunla qol-boyun olmağa başlayıram.

Məhz həmin bu məqamda da Füzuli kimi olmasa da, Füzulini anlamağa çalışan birisi kimi mən də uşaqlığımın, yeniyetmə illərimin azadlığını təkrar bu günümə qaytarıram. Çünki həmin zaman kəsiyində qayğısızlıq, sərbəstlik, hətta bir az hər şeyə, hər kəsə münasibət bildirmək, özünü buludların qoynunda hiss etmək kimi bir eyforik ömür yaşamışam. Əgər bu mənim həyatımda indi bir xatirədirsə, onda Məhəmməd adlı bir uşağın gəlibFüzuli kimi bir şair olana qədər nələrdən keçdiyinin özü mənə görə möcüzə bir ömür yaşamaqdır.

Zamanını, daha doğrusu, həmin o uşaqlıq və gənclik illərini,dostlarını, yaxın ətrafını elə həmin o qayğısızlığın qoynunda buraxıb gələn Məhəmməd - Füzuli yüksəkliyindən onlara üz tutanda, akademik Kamal Abdullanın təbirincə desək, bir zamanın şad-xürrəmliyi, azad yaşamı bizə bir həsəd yaşadır. Bütün bunlar da, yəni həsəd,həsrət, azadlıq, bir sözlə, həyatın gerçək üzü bütün dünyanın dərdlərinə könül verən, qol açan bir şairi ucaldır. Onun böyüklüyünü, əyilməzliyini tarixiləşdirir.Gerçək olan sözün özündə də ifadəsini tapır.

Və mən Məcnundan artıq aşiqliyi olanFüzulinin dünyalarca dərdi çəkmək gücünə qadir olduğuna bütün varlığımla artıq birmənalı inanıram. Və bir də akademik Kamal Abdullanın bu essesinin işığında görürəm ki,Füzulinin təəssüfünün özü də hardasa bir tərənnümdü, bir səmimi etirafdı.Yaşamın Füzuli kimi, Füzuli adlı etirafı!..

Bəli, bir tiflin cövlan etməsi , bir uşağın əylənməsi Füzuli baxışı altında, Füzuli ruhu fonunda öz adi məcrasından bir ali mərtəbəyə yüksəlir. Bu, yerlə göy arasında öz sözünü işığa çevirən Füzuli hikmətidir, Füzuli qüdrətidir. Ona sonsuz sayğılar!Akademik Kamal Abdullaya isə məni Füzulidərslərinə yönəltdiyi üçün təşəkkür edirəm.